# TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ AUDİTORİYADANKƏNAR MƏŞĞƏLƏLƏRİN TƏŞKİLİ VƏ PLANLAŞDIRILMASINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRDƏN İSTİFADƏ YOLLARI

https://doi.org/10.30546/2706-7858.2026.09.3.312

**UOT:** 37:378

**Xülasə**. *Məqalədə tələbələrin milli-mənəvi dəyərlər ruhunda formalaşdırılmasında təhsil müəssisələrində aparılan təlim-tərbiyə işləri, bu problemin müasir dövrdə aktuallığını şərtləndirən amillər öz əksini tapmışdır. Tələbələrdə milli-mənəvi dəyərlərə olan sevgini artırmaq və bu dəyərləri gənc nəslin yaddaşında möhkəmləndirmək qarşımızda duran əsas vəzifələrdən biridir. Bu mənada həm təhsilin, həm də bütövlükdə cəmiyyətin qarşısında duran başlıca vəzifələrdən biri xüsusi əhəmiyyət kəsb edən ali təhsil prosesini daha məhsuldar və milli dəyərlər fonunda qurmaqdır. Həmçinin məqalədə qeyd edilir ki, tədris prosesinin istənilən mərhələsində milli-mənəvi dəyərlərin inteqrasiyası qloballaşan dünyada qarşıda duran əsas vəzifə və aktual problemdir.*

***Açar sözlər:*** *milli-mənəvi dəyər, ali məktəb, qloballaşma, təhsil prosesi, auditoriyadankənar məşğələlər.*

***Keywords:*** *national-moral values, high school, globalization, educational proces, extracurricular activities.*

***Ключевые слова:*** *национально-нравственные ценности, высшая шкала глобализация, образовательный процес, внеклассные занятия.*

Müasir dövrdə ali təhsil müəssisələrinin əsas məqsədi yalnız peşəkar kadr hazırlamaq deyil, eyni zamanda yüksək mənəvi keyfiyyətlərə, milli kimliyə və vətəndaşlıq mövqeyinə malik şəxsiyyət formalaşdırmaqdır. Qloballaşma prosesinin sürətləndiyi bir şəraitdə milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə ötürülməsi xüsusi aktuallıq kəsb edir. Bu baxımdan ali məktəblərdə auditoriyadankənar məşğələlər milli-mənəvi tərbiyənin mühüm vasitələrindən biri kimi çıxış edir. Milli-mənəvi dəyərlər hər bir xalqın tarixi yaddaşını, mədəni kimliyini və mənəvi dünyasını özündə əks etdirən müqəddəs irsdir. Bu dəyərlər əsrlər boyu formalaşaraq nəsildən-nəslə ötürülmüş, xalqın həyat tərzini, dünyagörüşünü və davranış normalarını müəyyən etmişdir.

**Tədqiqatın aktuallığı**

Ali təhsil müəssisələrində tələbələrin şəxsiyyət və mənəvi keyfiyyətlərinin formalaşmasında auditoriyadankənar məşğələlər mühüm rol oynayır. Lakin bu fəaliyyətlərin planlaşdırılması və təşkili zamanı milli-mənəvi dəyərlərin sistemli inteqrasiyası hələ də kifayət qədər nəzəri və praktik əsaslandırılmayıb. Mövcud elmi ədəbiyyat daha çox tədris prosesinə fokuslandığı halda, tərbiyəvi və dəyəryönümlü fəaliyyətlərin strukturlaşdırılmış mexanizmləri az öyrənilmişdir. Bu baxımdan tədqiqatın aparılması tələbələrin sosial-mədəni inkişafını, milli-mənəvi dəyərlərə bağlılığını və ali təhsildə tərbiyə işinin keyfiyyətini artırmaq baxımından aktualdır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri ali təhsil müəssisələrində auditoriyadankənar məşğələlərin təşkili və planlaşdırılmasında, tələbələrin milli-mənəvi dəyərlərə əsaslanan fəaliyyətlərinin effektivliyinin artırılmasında tətbiq oluna bilər. Aparılmış iş nəticəsində hazırlanmış metodik tövsiyələr və model ali təhsil müəssisələrinin tərbiyə işində, əlavə kurslarda və sosial-mədəni layihələrdə istifadə oluna bilər, həmçinin müəllim və tələbələr üçün praktiki rəhbər vəsait rolunu oynaya bilər.

**Tədqiqatın elmi yeniliyi**

Ali təhsil müəssisələrində auditoriyadankənar

məşğələlərin təşkili və planlaşdırılması prosesində milli-mənəvi dəyərlərin sistemli inteqrasiyasına dair konseptual yanaşma ilk dəfə olaraq əsaslandırılmışdır. Dəyəryönümlü auditoriyadankənar fəaliyyət modeli işlənilib hazırlanmış və onun struktur-komponent tərkibi müəyyən edilmişdir. Ali təhsildə tətbiq oluna biləcək praktiki metodik tövsiyələr paketi hazırlanmış və mərhələləri sistemləşdirilmişdir. Empirik tədqiqat nəticələri əsasında milli-mənəvi dəyərlərin tələbələrin şəxsiyyət və sosial-mədəni inkişafına təsiri müəyyən edilmişdir.

Azərbaycan xalqının milli-mənəvi dəyərləri zəngin və çoxşaxəlidir. Onlar xalqımızın tarixi keçmişini, mübarizə yolunu, mədəni irsini və mənəvi bütövlüyünü əks etdirir. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 4-cü maddəsindəki məqsədlər gənc nəslin milli-mənəvi dəyərlər əsasında inkişafı baxımından əhəmiyyətlidir:

• *Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;*

• *milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabətqabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq [2].*

Milli-mənəvi dəyərlərimiz olduqca genişdir və bu dəyərlərdən tədris prosesinin təşkili zamanı məhsuldar istifadə etməklə sağlam nəsil yetişdirə bilərik:

**Ana dilimiz**

Ana dili insanın kimliyini müəyyən edən ən vacib amillərdən biridir. Azərbaycan dili yalnız ünsiyyət vasitəsi deyil, həm də xalqımızın tarixini, düşüncə tərzini və mədəniyyətini özündə daşıyır. İnsan ana dilində düşünür, hislərini daha düzgün ifadə edir və milli dəyərləri daha dərindən anlayır. Məhz buna görə məktəblərdə tədrisin ana dilində aparılması təhsilalanların bilikləri daha yaxşı mənimsəməsinə şərait yaradır. Gündəlik həyatda böyük insanlara "siz" deyə müraciət olunması dilimizdə hörmət və etik davranış normalarının göstəricisidir. Klassik ədəbiyyat nümunələrində, xüsusilə Nizami Gəncəvi kimi dahilərin əsərlərində dilimizin zənginliyi və incəliyi açıq şəkildə özünü göstərir. Ona görə də ana dilinin qorunması, onun saflığının saxlanılması və gələcək nəsillərə düzgün şəkildə ötürülməsi hər bir vətəndaşın əsas vəzifələrindən biri hesab olunur.

**Ədəbiyyat və folklor**

Azərbaycan ədəbiyyatı və folkloru xalqın keçmişini, həyat tərzini və dünyagörüşünü əks etdirən zəngin mənəvi xəzinədir. Nağıllar, dastanlar, atalar sözləri və bayatılar vasitəsilə insanlar həyatın müxtəlif tərəflərini öyrənir, yaxşı ilə pisi ayırd etməyi bacarır. Xüsusilə "Kitabi-Dədə Qorqud" kimi möhtəşəm abidələrdə qəhrəmanlıq, vətənə bağlılıq və ailə dəyərləri geniş şəkildə təsvir olunur. Atalar sözlərində isə xalqın həyat təcrübəsi öz əksini tapır; məsələn, "Yalan ayaq tutar, amma yeriməz" ifadəsi dürüstlüyün vacibliyini vurğulayır. Nağıllarda isə zəka, cəsarət və xeyirin şər üzərində qələbəsi ideyası ön plana çıxır. Bu baxımdan ədəbiyyat və folklor yalnız əyləncə vasitəsi deyil, həm də tərbiyəvi əhəmiyyətə malik mühüm vasitədir.

***Ailə dəyərləri.*** Ailə cəmiyyətin əsasını təşkil edir və insanın ilk tərbiyə aldığı mühitdir. Uşaq ilk davranış qaydalarını, hörmət və sevgi anlayışını, məhz ailədə öyrənir. Böyüklərə hörmət göstərmək, onların yanında etik qaydalara riayət etmək, ailə üzvləri arasında qarşılıqlı dəstək və qayğının olması sağlam münasibətlərin göstəricisidir. Məsələn, böyüklərin qarşısında ayağa qalxmaq və ya onların sözünü kəsməmək kimi davranışlar hörmətin ifadəsi sayılır. Bayram günlərində ailə üzvlərinin bir süfrə ətrafında toplaşması birlik və həmrəylik hissini gücləndirir. Valideynlərin uşaqlara düzgün həyat prinsiplərini aşılaması onların gələcəkdə cəmiyyətə faydalı vətəndaş kimi hazırlanmasına zəmin yaradır.

***Vətənpərvərlik.*** Vətənpərvərlik insanın öz ölkəsinə olan sevgisi və bağlılığıdır və bu hiss yalnız sözlə deyil, əməl ilə də özünü göstərir. Dövlət rəmzlərinə hörmət, bayrağın ucaldılması və himnin ifası vətənə bağlılığın ifadəsi hesab olunur. Azərbaycan xalqı tarix boyu öz torpaqlarını

qorumaq uğrunda mübarizə aparmış və bu mübarizə, xüsusilə Qarabağ müharibəsi dövründə daha aydın şəkildə özünü göstərmişdir. Şəhidlərin xatirəsinin yad edilməsi və qazilərə göstərilən ehtiram cəmiyyətdə vətənpərvərlik hislərini daha da gücləndirir. Bu dəyərlərin gənc nəslə aşılanması ölkənin gələcəyi və milli birliyin qorunması baxımından mühüm əhəmiyyət daşıyır.

***Dini və mənəvi dəyərlər.*** Azərbaycan dünyəvi dövlət olsa da, dini-mənəvi dəyərlər cəmiyyət həyatında mühüm rol oynayır. Xüsusilə islam dini xalqımızın mənəvi dünyasının formalaşmasına təsir etmiş, insanlarda mərhəmət, səbir və ədalət kimi keyfiyyətlərin inkişafına səbəb olmuşdur. "Ramazan" ayında oruc tutmaq insanlara səbirli olmağı və öz nəfsinə nəzarət etməyi öyrədir, "Qurban" bayramında isə ehtiyacı olan insanlara pay verilməsi paylaşma və yardımsevərlik hislərini gücləndirir. Bu kimi dəyərlər insanların bir-birinə hörmətlə yanaşmasına və cəmiyyətdə sağlam münasibətlərin formalaşmasına kömək edir.

***Multikulturalizm və tolerantlıq.*** Azərbaycan tarixən müxtəlif millətlərin və dinlərin nümayəndələrinin bir arada yaşadığı məkan olmuşdur. Bu, cəmiyyətdə qarşılıqlı hörmət və anlayışın formalaşmasına səbəb olmuşdur. Müxtəlif dinlərə aid ibadət yerlərinin yanaşı fəaliyyət göstərməsi tolerantlığın real göstəricisidir. Fərqli millətlərdən olan insanların birgə yaşaması və işləməsi onların bir-birini daha yaxşı başa düşməsinə şərait yaradır. Multikulturalizm siyasətinin həyata keçirilməsi ölkədə sabitliyin və sülhün qorunmasına xidmət edir və bu dəyərlər Azərbaycan cəmiyyətinin əsas xüsusiyyətlərindən biri kimi çıxış edir.

***Milli ənənələr və adətlər.*** Milli ənənələr və adətlər xalqın həyat tərzini və tarixini yaşadan mühüm amillərdir. Bu ənənələr nəsildən-nəslə ötürülərək milli kimliyin qorunmasına xidmət edir. Xüsusilə "Novruz" bayramı xalqımızın ən qədim və ən əziz bayramlarından biridir. Bu bayramda tonqal qalamaq və onun üzərindən tullanmaq təmizlənmə və yenilənmə rəmzi hesab olunur, səməni qoymaq isə bolluq və bərəkəti simvolizə edir. Toy və nişan mərasimlərində milli musiqi və rəqslərin ifa olunması, qonaqların birlikdə şənlənməsi insanların birliyini və həmrəyliyini daha da gücləndirir.

***Milli musiqi və incəsənət.*** Milli musiqi və incəsənət xalqın daxili aləmini, hislərini və dünyagörüşünü əks etdirir. Azərbaycan musiqisi zənginliyi və özünəməxsusluğu ilə seçilir. Xüsusilə muğam ifaları insanın hislərini dərin şəkildə ifadə edir və milli ruhu yaşadır. Aşıq sənəti vasitəsilə dastanların və xalq hekayələrinin nəsildən-nəslə ötürülməsi təmin olunur. Üzeyir Hacıbəyli kimi görkəmli bəstəkarların yaradıcılığı isə milli musiqinin inkişafında mühüm rol oynamışdır. Milli incəsənət insanların estetik zövqünü formalaşdırır və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir.

***Milli-mənəvi dəyərlərdən istifadə yolları:***

• Tarixi və ədəbi irsin təbliği. Görkəmli şair və yazıçıların yaradıcılığına həsr olunmuş tədbirlər tələbələrdə milli ədəbi irsə marağı artırır.

• Milli bayram və anım günlərinin qeyd olunması. Əlamətdar günlərin qeyd olunması tələbələrdə vətənpərvərlik və milli həmrəylik hislərini gücləndirir.

• Milli musiqi və incəsənətin təşviqi. Muğam gecələri, xalq rəqsləri və milli musiqi tədbirləri estetik zövqün formalaşmasına xidmət edir.

• Vətənpərvərlik mövzusunda tədbirlər. Tarixi qələbələr və qəhrəmanlıq nümunələri gənclərdə vətənə bağlılıq hissini möhkəmləndirir.

• Multikultural və tolerant dəyərlərin təşviqi. Seminar və dəyirmi masalar vasitəsilə qarşılıqlı hörmət və tolerantlıq mədəniyyəti formalaşdırılır.

***Auditoriyadankənar məşğələlərin rolu.*** Auditoriyadankənar məşğələlər tələbələrin asudə vaxtının səmərəli təşkili, yaradıcılıq potensialının inkişafı və sosial fəallığının artırılması baxımından geniş imkanlar yaradır. Bu fəaliyyət formaları vasitəsilə tələbələr nəzəri biliklərlə yanaşı, praktik təcrübə qazanır, kollektivdə işləmə bacarığı formalaşdırır və milli dəyərlərlə daha yaxından tanış olurlar.

***Planlaşdırma prinsipləri.*** Auditoriyadankənar məşğələlərin təşkili zamanı sistemlilik, ardıcıllıq, tələbə maraqlarının nəzərə alınması, innovativ yanaşma və qiymətləndirmə mexanizmləri əsas götürülməlidir.

**Nəticə.** Milli-mənəvi dəyərlərə əsaslanan auditoriyadankənar fəaliyyət ali təhsilin keyfiyyətinin yüksəldilməsinə və sağlam, vətənpərvər

gənc nəslin formalaşmasına xidmət edən mühüm istiqamətdir.

### İstifadə edilmiş ədəbiyyat

1. Amabile T.M. The social psychology of creativity. Now-York, Springer-Verlag, 1983.
2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
3. İsmixanov M.A., Vəliyeva S.V. Sosial pedaqogika. Bakı, 2013.
4. Məmmədov T. Gənclərin milli-mənəvi dəyərlərlə tərbiyəsi və fiziki fəaliyyətin rolu. Bakı, ADPU nəşriyyatı, 2021.
5. Бондаревская Е.В. Ценностные основания личностно ориентированного воспитания. Журнал "Педагогика", 2005, №2, с.29-36.

**R.Kuhi**

### Ways to use national and spiritual values in organizing and planning extracurricular activities in higher education institutions

**Abstract**

The article reflects the educational and upbringing work carried out in higher education institutions in the formation of students in the spirit of national and spiritual values, the factors that determine the relevance of this problem in the modern era. Increasing the love for national and spiritual values in students and strengthening these values in the memory of the younger generation is the main factor facing us. In this sense, one of the main tasks facing both education and society as a whole is to build a more productive and national values based higher education process, which is of particular importance. The article also notes that the integration of national and spiritual values at any stage of the educational process is the main task and actual problem facing us in the globalized world.

**Р.Кухи**

### Способы использования национальных и духовных ценностей при организации и планировании внеучебной деятельности в высших учебных заведениях

**Аннотация**

В статье рассматривается образовательная и воспитательная работа, проводимая в высших учебных заведениях по формированию студентов в духе национальных и духовных ценностей, а также факторы, определяющие актуальность этой проблемы в современную эпоху. Главным фактором, стоящим перед нами, является привитие студентам любви к национальным и духовным ценностям и укрепление этих ценностей в памяти молодого поколения. В этом смысле одной из главных задач, стоящих перед образованием и обществом в целом, является построение более продуктивного и основанного на национальных ценностях процесса высшего образования, что имеет особое значение. В статье также отмечается, что интеграция национальных и духовных ценностей на любом этапе образовательного процесса является главной задачей и актуальной проблемой, стоящей перед нами в глобализованном мире.

**Rəhimə Kuhi,**
*Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*e-mail: rehime.kuhi.95@gmail.com*